AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
XÜSUSİ BURAXILIŞ, 2022, 100-114

ƏHMƏD CAVAD – 130

# Əhməd Cavadın həyatı, yaradıcılıq yolu və “Səsli qız” poemasının yeni texnologiyaların tətbiqi ilə öyrədilməsi

***Sevinc Rəsulova***
Pedaqogika üzrə fəlsəfə doktoru, doktorant. Azərbaycan Dövlət Pedaqoji Universiteti.
Bakı şəhəri üzrə Təhsil İdarəsi. Azərbaycan.
E-mail: rasulova.s@mail.ru
https://orcid.org/ 0000-0003-1070-6069

**XÜLASƏ**
Şagirdlərin görkəmli söz sənətkarı Əhməd Cavadla ilk tanışlığı ümumtəhsil məktəblərində ədəbiyyat dərslərindən başlanır. Belə ki, şairin bədii irsi ümumtəhsil məktəblərinin V (“Azərbaycan! Azərbaycan!” şeiri), IX (“Azərbaycan bayrağına” şeiri) və XI siniflərində (“Səsli qız” poeması) tədris olunur. XX əsrin əvvəllərində milli istiqlal ideyasının formalaşması və milli dövlətçilik məfkurəsinin möhkəmlənməsində Əhməd Cavad irsinin müstəsna rolu bütün incəliklərinə qədər şagirdlərə mənimsədilməlidir. Bu məqsədlə müəllim təlim prosesində kurikulumun tələblərinə uyğun olaraq, interaktiv təlim metodlarından məqsədyönlü istifadə etməklə şagirdlərin yaradıcı təfəkkür və tədqiqatçılıq bacarığının inkişafı istiqamətində ardıcıl iş aparmalıdır. Məqalədə XI sinifdə Əhməd Cavadın həyatı, yaradıcılıq yolu və “Səsli qız” poemasının tədrisi məsələləri öz əksini tapır.

**AÇAR SÖZLƏR**
istiqlal şairi, ədəbiyyat dərsləri, mübarizə, yaradıcılıq, müəllim, poema, xalq, milli

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 16.06.2022
qəbul edilib:17.07.2022

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
SPECIAL ISSUE, 2022, 100-114

**A H M A D J A V A D – 1 3 0**

# Teaching the life of Ahmet Javad, his creative path and the poem "Voice of a girl" using new technologies

***Sevinj Rasulova***
Doctor of philosophy in pedagogy, doctoral student. Azerbaijan State Pedagogical University. Baku city Education Department. Azerbaijan.
E-mail: rasulova.s@mail.ru
https://orcid.org/ 0000-0003-1070-6069

**ABSTRACT**
The first acquaintance of students with the prominent word master Ahmad Javad begins with literature lessons in secondary schools. The poet's heritage is teaching in grades V (poem "Azerbaijan! Azerbaijan!"), IX (poem " Azerbaijan Bayraghina") and XI (poem "Sesli giz") in secondary schools. In the early X century the exceptional role of Javad's heritage in strengthening the ideology of the national state in the formation of the idea of national independence should be taught to students in all its subtleties. In this case, the teacher should consistently organize the work on the development of creative thinking and research abilities of students, purposefully using interactive teaching methods in the educational process in accordance with the requirement of the curriculum. This article reflected the life and work of Ahmad Javad and about teaching the poem "Sesli giz" in the 11th grade.

**KEYWORDS**
independence poet, literature classes, struggle, creativity, teacher

**ARTICLE HISTORY**
Received: 16.06.2022
Accepted: 17.07.2022

## Giriş / Introduction

XI sinifdə Əhməd Cavadın həyat və yaradıcılıq yolunun öyrənilməsinə 5 dərs saatı ayrılmışdır. Bu dərs saatları aşağıdakı qaydada planlaşdırılmışdır:

1. Əhməd Cavadın həyatı, yaradıcılıq yolu – 1 saat;
2. “Səsli qız” poeması – 4 saat (I saat: Məzmun üzrə iş, II saat: Məzmun üzrə iş, III saat: Təhlil üzrə iş, IV saat: Tətbiq. Müzakirə. Yaradıcı iş).

Bu dərs saatlarında aparılan işlərin səciyyəvi mərhələlərinə nəzər yetirək:

***Mövzu:*** Əhməd Cavadın həyatı, yaradıcılıq yolu.

***Dərsin gedişi:*** İlk növbədə ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilməli, şairin məsləkdaşı Hüseyn Cavidin yaradıcılığı ilə bağlı mənbələrdən toplanmış məlumatların düzgünlüyü və məqsədyönlülüyü aydınlaşdırılmalıdır. Müəllim şagirdlərin ev tapşırığını hazırlayarkən əldə etdiyi məlumatlara əsasən keçmiş dərslə yeni dərs arasında əlaqə yaratmalıdır.

Bu iş “Müasir təlimin prinsipləri”nə uyğun aparılmalı, “Fəal idrak prinsipi”ndən istifadə etməklə həyata keçirilməlidir. Bu zaman kurikulumun tələblərinə uyğun olaraq, interaktiv metodlardan (Venn diaqramı, müzakirə, diskussiya və s.) məqsədyönlü istifadə, şagirdlərin əlavə mənbələr üzrə müstəqil işinin təşkili zəruridir.

Zəfər çalmış ölkənin övladlarının vətənpərvər, milli ruhda tərbiyə edilməsi məqsədilə şairin həyat və yaradıcılıq yolu öyrədilərkən onun “Qoşma” (1916) kitabına daxil edilmiş “Quşlara”, “Qafqazlısan, sev Qafqazı!”, “Dilimiz”, “Ey axund...” şeirləri, “Dalğa” (1919) kitabına daxil edilmiş “Azərbaycan! Azərbaycan!”, “Azərbaycan bayrağına”, “Al bayraq”, “Can Azərbaycan”, “Qardaş” əsərlərindən nümunələr gətirilməli, müzakirə zamanı ədibin şəxsiyyətini səciyyələndirən cəhətlər, zəngin yaradıcılığının ideya-bədii xüsusiyyətləri şagirdlərə dərindən mənimsədilməlidir.

Sonrakı, *Motivasiya və problemin qoyuluşu mərhələsinin* dərsin vacib komponenti olmaqla təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən proses olduğu nəzərə alınmalıdır. Motivasiya yaratmaq məqsədilə şagirdlərin mövzu ilə bağlı mövcud bilikləri aşkara çıxarılır, yığcam müzakirə aparılır. BİBÖ (bilirəm, istəyirəm bilim, öyrəndim) üzrə cədvəl çəkilir. Müsahibə əsasında “Bilirəm” və “İstəyirəm Bilim” sütunlarında müvafiq qeydlər aparılır. Ə.Cavadın həyatı və yaradıcılıq yoluna aid mətnin ilkin oxusu həyata keçirilir. “Faciəli taleyi olan şair – Əhməd Cavad” sənədli filmindən seçilmiş video-

kadrlar (https://www.youtube.com/watch?v=WYqa5imxwX8) nümayiş etdirilir. Şagirdlər filmə baxdıqdan sonra BİBÖ üzrə cədvəlin “Öyrəndim” sütununda müvafiq yekun qeydlər aparırlar.

| BİBÖ | | |
|---|---|---|
| BİLİRƏM | İSTƏYİRƏM BİLİM | ÖYRƏNDİM |
| | | |

Bu görüntülərə və dərslikdəki mətn üzrə işə əsasən yığcam müzakirə aparılaraq tədqiqat sualı müəyyənləşdirilir:

***Tədqiqat sualı:*** *Ə.Cavadın ardıcıl, amansız təqib və təzyiqlərə məruz qalmasının əsl səbəbi, sizcə, nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir. Dərslikdə verilən qaydaya əməl etməklə Ə.Cavadın həyatı və yaradıcılıq yoluna aid mətn üzrə aşağıdakı qaydada iş aparılır:

1. Şagirdlər dərslikdə təklif edilmiş tapşırıqla tanış olur, yaranan suallara aydınlıq gətirir.
2. Müəyyənləşdirilmiş cütlüyə daxil olan şagirdlərdən biri ilk mətnkənarı sualı və onun cavabını ucadan oxuyur.
3. Hər iki şagird oxunmuş parça ilə bağlı açar sözlər müəyyənləşdirir və onlardan istifadə edərək suallar hazırlanır. Həmin parça üçün açar sözlərə bunları nümunə göstərə bilərik: ruhani ailəsi, ruhani seminariyası, “mədrəsə şeirləri”, müəllimlik, müharibə, xeyriyyəçilik, ilk kitab, “Əhməd Cavad kədəri”.
4. Ruhani ailəsində dünyaya göz açan Əhmədin doğmalarının elmə, təhsilə münasibəti necə idi? Ruhani seminariyasında təhsil almaq Əhmədin inkişafında hansı rol oynadı? Onun ilk qələm təcrübələrinin “mədrəsə şeirləri” adlanmasına səbəb nə idi? Ə.Cavad müəllimlik fəaliyyətinə nə zaman başladı və o hansı bölgələrdə çalışdı? Müharibə onun həyat və yaradıcılığında hansı dəyişikliklərə səbəb oldu? və s.
5. İkinci şagird (mətni oxumayan) açar sözlərdən istifadə etməklə (yuxarıdakı nümunələrə bənzər) suallar hazırlayır və cavab üçün birinci şagirdə müraciət edir. Birinci şagirdin (mətni oxuyanın) cavabı qənaətbəxş olmasa, o zaman müzakirədə bütün sinif iştirak edir. Cavabla bağlı ortaq məxrəcə gələnə qədər müzakirə davam edir.
6. Cütlüklər bir-birini əvəz etməklə digər mətnkənarı sualları və onların cavabını bu qayda ilə oxuyub başa çatdırırlar.

7. Açar sözlərin məzmunu, hazırlanmış sualların tələbləri ehtiyac duyulan hallarda müəllimin yönləndirməsi ilə dərinləşdirilir və təkmilləşdirilir.
8. Müzakirədə müxtəlif mənbələrdən əldə edilmiş məlumatlara, ayrı-ayrı problemlərə şagirdlərin münasibəti, məzmuna uyğun emosional-obrazlı ifadələrdən istifadə bacarıqları aşkara çıxarılır və nəzərə alınır. Müzakirənin gedişində, eləcə də sonda mətnə hansı məzmunda əlavələr etməyin lazım olduğu müəyyənləşdirilir və bəndlər şəklində qeyd edilir.

***Nəticələrin çıxarılması, ümumiləşdirmənin aparılması*** mərhələsində H.Cavid və Ə.Cavad yaradıcılığının müqayisəli təhlili üçün Venn diaqramı üzrə iş aparmaq məqsədəuyğundur. Bu metod həm köhnə, həm də əldə edilmiş yeni biliklərin dərinləşməsinə xidmət edir. Bunun üçün şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı, dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır). Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur). Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.




***Yekun nəticə*** çıxarılan zaman müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlər belə bir qənaətə gəlirlər ki, Ə.Cavad üçün ən böyük istək Vətənini müstəqil, xalqını azad görmək idi. O, türk xalqlarının birliyini, həmrəyliyini ürəkdən arzulayan, bu yolda əzmlə çarpışan sənətkar və mücahid olmuş, "cümhuriyyət nəğməkarı" kimi tanınmışdır. Bolşevik hakimiyyəti Ə.Cavadı qatı düşmən sayır, onun heç vaxt milli-azadlıq ideyalarından uzaqlaşmayacağını bilirdi. Şairin xüsusi amansızlıqla təqib edilməsinin əsl səbəbi də elə bu idi.

**Çıxarılan nəticələr fərziyyələrlə müqayisə edilir.**

Dərsin sonunda müəllim qarşıya qoyulan təlim nəticələrinə nail olur. 2.1.1. standartına uyğun olaraq şagirdlər müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir, 2.2.1. standartına uyğun olaraq isə müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini dinləyicilərin rəyini nəzərə almaqla əsaslandırır, mimika və jestlərdən məqsədyönlü şəkildə istifadə edir.

***Qiymətləndirmə mərhələsi:*** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələr üzrə cədvəllərdən istifadə məqsədəuyğundur. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Əhməd Cavadın "Səsli qız" poemasının tədrisi**

Poemanın tədrisinə – 4 saat ayrılır; I saat: Məzmun üzrə iş, II saat: Məzmun üzrə iş, III saat: Təhlil üzrə iş, IV saat: Tətbiq. Müzakirə. Yaradıcı iş.

**Mövzu:** Ə.Cavad. Səsli qız (ixtisarla)

**Birinci saat:** Məzmun üzrə iş

***Dərsin gedişi:*** İlk növbədə yeni dərslə əlaqə yaratmaq üçün ev tapşırığının yerinə yetirilmə səviyyəsi öyrənilir.

Şairin "Qoşma" adlı kitabında toplanmış ictimai məzmunlu, "Dalğa" kitabında isə müstəqillik, milli azadlıqla bağlı şeirləri dinlənilir, onların ideya-məzmunu arasındakı oxşar cəhətlər təqdimatlar şəklində müzakirə edilir.

***Cədvəl 1.***

| "Qoşma" kitabındakı ictimai məzmunlu şeirlər | Bu şeirlərdə əks olunmuş əsas məsələlər |
|---|---|
| | |

***Cədvəl 2.***

| "Dalğa" kitabındakı müstəqillik, milli azadlıqla bağlı şeirlər | Onların oxşar cəhətləri |
|---|---|
| | |

Mətnkənarı, eləcə də digər iki sualın hər biri ilə bağlı mənbələrdən öyrənilmiş məlumatlar dəqiqləşdirilir. Bütün məqamlarda müəllimin qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Müəllim "Ə.Cavadın Xeyriyyə Cəmiyyətinin nümayəndəsi kimi cəbhə bölgələrindəki fəaliyyəti nədən ibarət olmuşdur? Bu fəaliyyətin əhəmiyyəti nə idi?" kimi suallar səsləndirməklə Motivasiya mərhələsinə keçid ala bilər.

***Motivasiya, problemin qoyuluşu***

*"Vətən müharibəsi – 44 günlük müharibə"* sənədli filmindən seçilmiş video-kadrlar (https://www.youtube.com/watch?v=2cmHznpzQBs) nümayiş etdirilir. Filmə baxdıqdan sonra şagirdlərə "Beyin həmləsi" metodundan istifadə etməklə lövhədəki suallarla müraciət edilir:

1. Hansı müharibələr haqqında məlumatınız var?
2. Müharibələrin törətdiyi faciələr barədə nə bilirsiniz?
3. Kimlər müharibə qurbanları sayılır?
4. Müharibə dövründə mülki əhalinin hansı hüquqları qorunmalıdır?

Cavablar dinlənilir, fikir mübadiləsi və müzakirələr aparılır. Tarix, coğrafiya fənlərinə inteqrasiya edilir. Erməni faşistlərinin qeyri-insani əməlləri həyati misallarla xatırladılır, məhv edilmiş abidələrimiz, şəhər və kəndlərimiz dəqiq rəqəm və faktlarla yada salınır, həlak olmuş həmvətənlərimizin – şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Müzakirənin sonunda tədqiqat sualı formalaşdırılmış olur.

***Tədqiqat sualı:*** *"Müharibə dinc, silahsız insanlara və insanlığa qarşı çevrilməməlidir!" fikrini doğru saymaq olarmı?* Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması** işinə poemadan dərslikdə verilmiş hissənin oxusu ilə başlanılır. Oxu "Cütlərlə iş" formasında reallaşdırıla bilər.

1. Müəyyənləşdirilmiş cütlərdən biri ilk parçanı ucadan oxuyur və yoldaşının mətnlə bağlı suallarına cavab verir. Ortaq qərara gələnə qədər cavablar müzakirə olunur.
2. Cütlər rollarını dəyişir: Sual verən ikinci parçanı ucadan oxuyur, ilk parçanı oxuyan isə suallar verir. Cütlər ortaq qərara gələnə qədər cavablar müzakirə edilir.
3. Bütün parçalar bu qayda ilə oxunub başa çatdırıldıqdan sonra kiçik qruplar yaradılır, hər parça üzrə səsləndirilmiş suallar və onların cavabları ilə bağlı fikir mübadiləsi aparılır, çıxarılmış nəticələr müzakirə edilir.

Dərsin sonunda müəllim qarşıya qoyulan təlim nəticələrinə nail olur. 1.1.4. standartına uyğun olaraq, şagirdlər poemada əksini tapmış milli-mənəvi və bəşəri dəyərləri müəyyənləşdirir, 2.1.2 standartının tələbinə əsasən poemanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla açıqlayır.

Formativ qiymətləndirmə məzmun standartları (təlim nəticələri) əsasında müəyyənləşdirilmiş müvafiq qiymətləndirmə meyarları üzrə aparılır. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Mövzu:** Ə.Cavad. Səsli qız (ixtisarla).

**İkinci saat:** Məzmun üzrə iş.

***Dərsin gedişi:*** Yeni dərslə əlaqə yaratmaq üçün ev tapşırığının yerinə yetirilməsi səviyyəsi öyrənilir. Bunun üçün "Qruplarla iş" formasından istifadə edilir. Yaradılan kiçik qrupların üzvləri evdə oxuduqları poemadan parçalardakı əsas fikir, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərini bölüşürlər. Çıxarılan nəticələr barədə hazırlanmış təqdimatlar əsasında qruplararası fikir mübadiləsi və müzakirə aparılır. Müzakirədə aşağıdakı sualların geniş əhatə olunmasına səy göstərilir: Məğlub ölkənin varlı adamları, din xadimləri qalib şahı necə qarşılayır? Şairin bu adamlara, qarşılanma mərasiminə, ümumiyyətlə, təsvir olunanlara münasibəti əsərdə öz əksini necə tapıb? Saranın oxuduğu mahnıda hansı fikir daha qabarıq şəkildə ifadə olunub? Sara intiqam barədə düşünməyə bilərdimi? Saranın yaşadığı ölkəni şair nə üçün "köhnə mənada azad" hesab edir?

Suallarda, göründüyü kimi, yalnız deklarativ biliyə istinad edilmir, onlarda hadisələrin mahiyyətinin başa düşülməsi, yazıçının mövqeyinin, səbəb-nəticə əlaqələrinin dərk edilməsi, ideya ilə bağlı ilkin qənaətlərin yaranması kimi məsələlər diqqət mərkəzində saxlanılır. Obrazlara, təsvir olunanlara müəllifin münasibətinin aydınlaşdırılmasını tələb edən sual əsərin dilinə, yazıçının fərdi üslubuna xüsusi diqqət tələb edir. Poemanın dil xüsusiyyətləri ilə tanış olan şagirdlər bu sualın cavabının aydınlaşdırılmasında çətinlik çəkmirlər. Ümumiyyətlə, əsərdə müəllif obrazı özünü qabarıq şəkildə göstərir. Bu, onun söz və ifadələrində, təsvirlərində aydın şəkildə müşahidə olunur. Aşağıda verilən nümunələr müəllifin mövqeyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

İşlənməmiş qalmadı
Bir cinayət, bir günah.
Əzmişdi insanlığı
Ordusuyla padişah.
Haqsızlıq oldu qanun,
Yıxıldı xanimanlar...

*"Saranın oxuduğu mahnıda hansı fikir daha qabarıq şəkildə ifadə olunub?"* sualı da şagirdləri əsərin ideyasını başa düşməyə istiqamətləndirməsi baxımından əhəmiyyətlidir.

Darğınam mən belə baxta,
Ürəyim qan laxta-laxta.
Bax ki kimlər çıxdı taxta,
Küsdü kimin baxtı, bağlar!..

Cənnət kimi ölkənin məzarlığa döndərilməsi, təkcə müdafiəçilərin deyil, dinc əhalinin də qılıncdan keçirilməsi, ölkənin yadellilərin əlinə keçməsi mahnıda əksini tapan başlıca məsələlərdəndir. Ümumiyyətlə, poemada müharibə insanlığa qarşı çevrilmiş qanlı hadisə kimi tənqid olunmuşdur. Məğlub ölkənin dinc əhalisinin qarşılaşdığı fəlakət, yas içində olan insanların şənlik etməyə təhrik olunması əsərdə təsirli lövhələrlə əks olunmuş, yazıçı bütün olanlara nifrətini gizlətməmişdir.

Bunların aydınlaşdırılması tədqiqat sualının cavablandırılmasına, poemanın ideyasının əhatəli şərhinə imkan yaradır. Sualların hər birinin cavabları izah olunarkən bədii əsərin özündən nümunələrin göstərilməsinə diqqət yetirilir. Növbəti tapşırığın (Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında iki formada – geniş və yaradıcı nağıl etməyə hazırlaşın) yerinə yetirilməsi üçün ayrılan vaxt başa çatdıqdan sonra nümunələrin dinlənilməsi və müzakirəsi həyata keçirilir. Aparılan işin yekununda şagirdlərdə belə bir qənaət yaranır ki, müharibə, ümumiyyətlə, insanlara fəlakət gətirir, onun insanlığa, silahsız, dinc əhaliyə qarşı çevrilməsi yolverilməzdir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

Dərsin sonunda müəllim qarşıya qoyulan təlim nəticələrinə nail olur. 1.1.3. standartna uyğun olaraq şagirdlər poemanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında iki formada – geniş və yaradıcı şəkildə nəql edir, 2.1.2. standartına uyğun olaraq isə poemanın dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.

***Qiymətləndirmə.*** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur. Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Mövzu:** Ə.Cavad. Səsli qız (ixtisarla)

**Üçüncü saat:** Təhsil üzrə iş.

***Dərsin gedişi:*** Ev tapşırığının tələblərinin reallaşdırılması səviyyəsi ayrı-ayrı şagirdlərin təqdimatlarının dinlənilməsi, müzakirə edilməsi yolu ilə aşkara çıxarılır və müvafiq meyarlarla qiymətləndirilir.

***Motivasiya, problemin qoyuluşu mərhələsi:*** Müəllim "Beyin həmləsi" metodundan istifadə edərək şagirdlərin təhlilə hansı səviyyədə hazır olduqları barədə təsəvvür əldə etmək üçün suallara cavab verməyi təklif edir:

1. Poemanın mövzusu və ideyası haqqında nə bilirik?
2. Əsərdəki obrazlar barədə hər şeyi bilirikmi?
3. Poema hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir? Müsahibənin əsasında tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** *Poemanı yazmaqda müəllifin əsas niyyəti, sizcə, nə olmuşdur?* Fərziyyələr dinlənilir və qeyd edilir. Tədqiqatın aparılmasına dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Oxunun həyata keçirilməsi üçün dərslikdə təklif edilmiş tapşırıq mətnin anlaşılaraq mənimsənilməsinə və şagirdlərdə müstəqilliyin, fəallığın təmin edilməsinə imkan yaradır. Müəllimin təklifi ilə şagirdlər mətnkənarı sualı və onun cavabını aramla oxuyur. Oxunan parçalarda ifadə olunmuş əsas fikirlər ümumiləşdirilərək bir neçə cümlə ilə söylənilir. Sonra oxunan mətnlə bağlı şagirdlərə: Əsər hansı mövzuda yazılıb? Şairin bu mövzuda əsər yazmasının səbəbini necə izah edərsiniz? Poemada daha çox önəm verilən məsələlər hansılardır? və s. suallar verilir. Diskussiya aparılır. Oxunmuş parçaya nələrin əlavə edilməsinin lazım olması barədə fikir mübadiləsinin aparılmasına da vaxt ayrılır. Əlavə edilməsi məqbul sayılan məsələlər bəndlər şəklində yazılır. Çox vaxt bu əlavələr dərslikdə işarə edilmiş fikrin genişləndirilməsi məqsədi ilə aparılır. Məsələn, əsərin mövzusu ilə bağlı daha geniş məlumatın öyrənilməsi vəzifə kimi qeyd olunur. İkinci mətnkənarı sualın (Poemadakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə seçilir?) cavabı da digər cavablar kimi yığcamdır və araşdırma aparılmasını, digər mənbələrdən məlumatların toplanmasını tələb edir. Bu sualla bağlı dərslikdəki məlumat daha çox iki obrazı – Sara və işğalçı hökmdarı əhatə edir. Həmin məlumat aşağıdakı qəbildən sualların verilməsinə imkan yaradır: Sara cəsarətlidirmi? Fikrinizi necə sübut edərsiniz? Vətənində baş verən hadisələrə Saranın münasibəti necədir? O, düşmənə münasibətini necə ifadə edir? Qalib hökmdarın hansı əməlləri onda nifrət oyadır? Bu sualların cavabı müzakirənin, xüsusən diskussiyanın təşkili ilə aydınlaşdırılır. Üçüncü mətnkənarı sual (Əsər hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?) daha ciddi yanaşma tələb edir. Bu sualı cavablandırmaq üçün dərslikdəki mətni oxuyan şagirdə müəllimin istiqamətləndirici suallarla kömək etməsi məqsədəuyğundur. Şagird poemanın süjeti, mərhələləri, kompozisiyası haqqındakı fikirlərini ümumiləşdirib yığcam ifadə etməlidir. Dərslikdəki təhlil materialının bütövlükdə oxusu başa çatdırıldıqdan sonra öyrənilmiş məlumatlarla bağlı qənaətlərin

ümumiləşdirilməsinə, nəticənin çıxarılmasına vaxt ayrılır. Bunun üçün təqdimatların dinlənilməsi və müzakirə edilməsi faydalıdır. Bu mərhələdə şagirdlər belə bir fikrə gəlir ki, milli azadlığa, müstəqilliyə qənim kəsilənlərə nifrət edən Ə.Cavad bu poemada öz mövqeyini gizlətməmiş, obrazlara, hadisələrə münasibətdə fikirlərini qabarıq şəkildə ifadə etmişdir. Şair güclü dövlətin zəif ölkələri işğal etməsini, onun əhalisinə divan tutmasını "insanlığın əzilməsi" hesab edir, bununla barışa bilmirdi. Onda bu qənaətin möhkəmlənməsinin mühüm səbəbi, şübhəsiz, "qırmızı rus ordusunun" ölkəmizi işğal etməsi idi.

Dərsin sonunda müəllim qarşıya qoyulan təlim nəticələrinə nail olur. 1.2.1. standartına uyğun olaraq şagirdlər poemanı dil-üslub, kompozisiya baxımından təhlil edir, 1.2.2. standartına uyğun olaraq poemadakı obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti, əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır, 1.2.4. standartına uyğun olaraq isə poemanın mövzusuna, ideyasına, başlıca probleminə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir.

***Qiymətləndirmə.*** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Mövzu:** Ə.Cavad. Səsli qız (ixtisarla).

**Dördüncü:** Tətbiq. Müzakirə. Yaradıcı iş.

***Dərsin gedişi:*** Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən, ilk növbədə, sinifdə öyrənilmiş materiala hansı mənbələrdən əlavələrin edildiyi aşkara çıxarılır. Mənbələrdən əldə olunmuş bu əlavələrin müvafiqliyi, dərslikdəki məlumatla uzlaşması, ümumiləşdirilməsi təqdimatların dinlənilməsində və müzakirəsində diqqət mərkəzində saxlanılır. Aşağıdakı suallar ətraflı fikir mübadiləsi və ciddi müzakirə tələb edir: Əsərin ideya-məzmunu hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir? Əsərin dili üçün səciyyəvi olan cəhətlər hansılardır?

Obrazların nitqinə əsasən müəllifin mövqeyini müəyyənləşdirmək mümkündürmü? Fikrinizi nümunələrlə əsaslandırın. Dərslikdəki təhlil materialında bu suallarla bağlı yalnız istiqamət verilmiş, mənbələri araşdırmaqla sinifdə yığcam öyrənilənlərin zənginləşdirilməsi və tamamlanması nəzərdə tutulmuşdur. Müzakirə zamanı bütün şagirdlərin mövqeyinin aşkara çıxarılmasına, fəal olmalarına səy göstərilir. Bütün hallarda müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

***Motivasiya, problemin qoyuluşu.*** Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa yönəlmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** *Poema üzrə təhlil xarakterli inşa və essedə hansı məsələlər öz əksini tapmalıdır?* Şagirdlərin fərziyyələri dinlənilir. Mövzular elan olunur: "Ə.Cavadın yaradıcılığında milli azadlıq və müstəqillik ideyalarının tərənnümü" mövzusunda inşa və "Poemada təsvir olunanlara və obrazlara müəllifin münasibəti" mövzusunda esse. Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğun hesab edilir. Yazı prosesini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə kömək edir. Şagirdlər mənbələrdən əldə etdikləri məlumatlarla məhdudlaşmır, faciənin səhnə həyatının onlarda yaratdığı təəssüratdan bəhrələnirlər. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının uğurlu cəhətlərini göstərməklə yanaşı, öz arzularını da (yazıya nə əlavə etmək, nələri dəyişmək, yaxud təkmilləşdirmək və s. ilə bağlı) ifadə edirlər. Şagirdlərə konkret meyarlara istinad etmələri üçün istiqamət verilir. Meyarları müəyyənləşdirməkdə müəllim sərbəstdir. Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. İnşada və essedə müşahidə olunan üslub fərqinə, ayrı-ayrı şagirdlərin fikirlərini ifadə tərzinə diqqət yetirilir. Şagirdlərə öz yazıları barədə yoldaşlarının arzu şəklində bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir. Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada, əsasən, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir, essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur.

Dərsin sonunda müəllim qarşıya qoyulan təlim nəticələrinə nail olur. 3.1.1. standartına uyğun olaraq şagirdlər inşanın və essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. 3.1.2. standartına uyğun olaraq müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır, 3.1.3. standartına uyğun olaraq isə təhlil xarakterli inşa, esse yazırlar.

***Qiymətləndirmə.*** Formativ qiymətləndirmə aparılarkən 31-38-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur. Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Nəticə / Conclusion**

Təlim prosesində azadlıq təşnəsi ilə yanan, xeyriyyəçilik əməlləri ilə xalqına fayda verən, ölməz əsərləri ilə oxucuların qəlbində özünə əbədi heykəl ucaldan, vətəninə, torpağına, millətinin müstəqilliyi uğrunda həyatı boyu apardığı istiqlal mücadiləsinə qırılmaz tellərlə bağlı olan Əhməd Cavadın irsi konkret nümunələr əsasında öyrədilməlidir. Şairin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi ədəbiyyat müəllimindən yeni yanaşma, böyük məsuliyyət və yaradıcılıq tələb edir.

Kurikulum üzrə ədəbiyyat dərslərində Ə.Cavadın həyat və yaradıcılığının tədrisinə yeni yanaşma, müzakirə, diskussiya, debat, BİBÖ, Venn diaqramı və s. interaktiv metodlardan məqsədyönlü istifadə, əlavə mənbələr üzərində işin təşkili, şairin yurd, vətən sevgisi, vətəndaşlıq, istiqlalçılıq, müstəqillik amalı ilə bağlı və bu yolda çəkdiyi məşəqqətlər barədə əsərlərindən nümunələrin gətirilməsi, müzakirə zamanı ədəbi irsinin çağdaş dövrümüz üçün əhəmiyyəti haqqında şəxsiyyətini səciyyələndirən cəhətlərin vurğulanması şagirdlərdə şairin zəngin yaradıcılığının ideya-bədii xüsusiyyətlərinin dərindən mənimsədilməsinə xidmət edir.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. (2020). Ədəbiyyat. XI sinif üçün dərslik. Bakı, Bakınəşr. 208 s.
2. Həsənov B., Mustafayeva A., Əliyev S. (2018). Ədəbiyyat. XI sinif. Müəllim üçün metodik vəsait. Bakı, Bakınəşr. 208 s.
3. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. (2020). Ədəbiyyat. IX sinif üçün dərslik. Bakı, Bakınəşr. 227 s.
4. Həsənov B., Əliyev S., Mustafayeva A., Verdiyeva N. (2020). Ədəbiyyat. IX sinif. Müəllim üçün metodik vəsait. Bakı, Bakınəşr. 227 s.
5. Hüseynoğlu S. (2019). Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 262 s.
6. Cavad Ə. (1992). Seçilmiş əsərləri. İki cilddə. Bakı, “Azərnəşr”. 149 s.
7. Cavad Ə. (2005). Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”. 296 s.
8. Nəbiyev B. (2004). Əhməd Cavad. Bakı, “Ozan”. 128 s.
9. Nəbiyev B. (2012). Əhməd Cavadın 120 illik yubileyi münasibətilə. Bakı, “Ozan”. 126 s.
10. Nəbiyev B. (1993). Əhməd Cavad. Gəncə, 130 s.